# Hesablama Palatası ötən il dövlətə dəymiş ziyanla bağlı 34,2 milyon manat dövlət vəsaitinin bərpasını təmin edib

Aprelin 20-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Tahir Mirkişili gündəliyə Hesablama Palatasının 2021-ci ildə fəaliyyəti haqqında hesabatının daxil edildiyini bildirib.

Tahir Mirkişili qeyd edib ki, Milli Məclisin Sədri Sahibə Qafarovanın tövsiyəsinə əsasən Hesablama Palatasının hesabatının müzakirəsinin əhatəliliyini artırmaq və keyfiyyətini daha da yüksəltmək məqsədilə iclasa müxalifətdən parlamentdə təmsil olunan deputatlar, ictimai təşkilatların nümayəndələri də dəvət olunublar.

Tahir Mirkişili Hesablama Palatasının təqdim etdiyi hesabatın qanunvericiliyin tələblərinə uyğun hazırlandığını, palatanın 4 istiqamət üzrə fəaliyyətini əhatə etdiyini açıqlayıb.

Azərbaycan Prezidentinin rəhbərliyi ilə iqtisadi islahatların həyata keçirilməsi, dövlətin sahibkarlara verdiyi ciddi dəstək və pandemiyanın yaratdığı böhranın uğurla idarə edilməsi nəticəsində 2021-ci ildə əldə olunan ciddi iqtisadi artımlara toxunan komitə sədri Hesablama Palatasının hesabatında COVID-19-la mübarizə çərçivəsində dövlət büdcəsindən ayrılan xərclərin monitorinqinin də əks olunmasını müsbət hal kimi qiymətləndirib. Tahir Mirkişili Palatanın fəaliyyətində rəqəmsallaşmanın 70 faizə qədər yüksəlməsini də ən çox nəzərəçarpan müsbət cəhətlərdən biri kimi diqqətə çatdırıb.

Komitə sədri Hesablama Palatasının fəaliyyət hesabatının qiymətləndirilməsi üçün Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi tərəfindən hazırlanmış 10 indikatoru açıqlayıb.

Sonra hesabatı təqdim edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov vurğulayıb ki, 2021-ci il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik siyasəti ilə əldə edilən Zəfərin siyasi-diplomatik müstəvidə möhkəmləndirilməsi, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinin görülməsi ilə yadda qalıb. Qeyd edib ki, Hesablama Palatası 2021-ci ildəki fəaliyyətini dövlət başçısının dövlət qurumları qarşısında müəyyənləşdirdiyi vəzifələrə uyğun olaraq həyata keçirməyə çalışıb.

Təqdim olunan hesabatın Hesablama Palatasının fəaliyyətinin 20 illiyinə təsadüf etdiyini deyən Vüqar Gülməmmədov bildirib ki, sənəd "2021-2025-ci illər üzrə Strateji Plan"a uyğun 2021-ci il üçün planlaşdırılmış və icra edilmiş fəaliyyətləri, illik iş planında nəzərdə tutulmuş və həyata keçirilmiş kənar dövlət maliyyə nəzarəti tədbirləri və cari fəaliyyət ilə bağlı məlumatları əks etdirməklə 7 bölmədən ibarətdir və infoqrafik şəkillərə üstünlük verilməklə yeni dizaynda tərtib olunub. Hesabatda Hesablama Palatası tərəfindən hazırlanan rəylərin, tövsiyələrin qısa xülasəsini verən palata sədri qeyd edib ki, ilk dəfə olaraq verilən tövsiyələrin icrası barədə məlumatlar da burada əks olunub. Vüqar Gülməmmədov vurğulayıb ki, 2021-ci ildə dövlətə dəymiş ziyanla bağlı 34,2 mln. manat dövlət vəsaitinin bərpası təmin olunub.

Hesabat dinlənildikdən sonra komitədə müzakirələr aparılıb. Deputatlar büdcənin icrası, mühasibat uçotu və hesabatlılıqla bağlı pozuntuların səbəbləri, hesabatda irəli sürülən tövsiyələrin yerinə yetirilməsi vəziyyəti ilə maraqlanıblar. Onlar performans auditin genişləndirilməsi, aşkar edilən pozuntuların ümumi fiskal dövriyyədə payı, elektron auditin inkişaf etdirilməsi və büdcənin icrasında şəffaflığın artırılması məsələləri ilə bağlı fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər, büdcə vəsaitlərində səmərəli istifadənin artırılması üçün Milli Məclisin palata ilə qarşılıqlı fəaliyyətinin və dəstəyinin gücləndirilməsinin əhəmiyyətini qeyd ediblər.

Komitə sədri Tahir Mirkişili çıxışları yekunlaşdırdıqdan sonra Hesablama Palatasının sədri müzakirədə səslənmiş təkliflərə münasibət bildirib və sualları cavablandırıb.

İclasın sonunda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi müsbət rəylə Hesablama Palatasının 2021-ci ildəki fəaliyyətinə dair hesabatı Milli Məclisin plenar iclasına tövsiyə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 21 aprel.- S.6.